# 184 Azərbaycan Respublikası ilə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) arasında "Keçid dövrünü yaşayan ölkələr arasında texniki əməkdaşlıq çərçivəsində ekspertlərin istifadə olunmasına dair Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası ilə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) arasında "Keçid dövrünü yaşayan ölkələr arasında texniki əməkdaşlıq çərçivəsində ekspertlərin istifadə olunmasına dair Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Muxtar oğlu **Quliyevə** verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Muxtar oğlu Quliyevə verilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatına müvafiq bildiriş göndərsin.

3. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 28 may tarixli, 163 nömrəli Sərəncamı qüvvədən düşmüş hesab edilsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 6 mart 2000-ci il
№ 345